# Kim müəzzini eşitdikdə, "Əşhədu əllə iləhə illallah vəhdəhu lə şərikə ləhu və ənnə Muhəmmədən əbduhu və rasuluhu, radiytu billəhi Rabbən və bimuhəmmədin rasulən, və bil-isləmi dinən" (şəhadət verirəm ki, Allahdan başqa haqq məbud yoxdur. O, təkdir və şəriki yoxdur, Muhəmməd Onun qulu və elçisidir. Mən Rəbb olaraq Allahdan, rəsul olaraq Muhəmməddən, din olaraq İslamdan razıyam) deyərsə, onun günahları bağışlanar

Sə'd bin Əbi Vaqqasdan (Allah ondan razı olsun) rəvayət edilir ki, Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Kim müəzzini eşitdikdə, "Əşhədu əllə iləhə illallah vəhdəhu lə şərikə ləhu və ənnə Muhəmmədən əbduhu və rasuluhu, radiytu billəhi Rabbən və bimuhəmmədin rasulən, və bil-isləmi dinən" (şəhadət verirəm ki, Allahdan başqa haqq məbud yoxdur. O, təkdir və şəriki yoxdur, Muhəmməd Onun qulu və elçisidir. Mən Rəbb olaraq Allahdan, rəsul olaraq Muhəmməddən, din olaraq İslamdan razıyam) deyərsə, onun günahları bağışlanar".
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, hər kim müəzzini eşidəndə bu cür deyərsə: "Əşhədu əllə iləhə illallah vəhdəhu lə şərikə ləhu" Yəni, təsdiq və etiraf edirəm və xəbər verirəm ki, Allahdan başqa ibadətə layiq həqiqi məbud yoxdur, Ondan başqa bütün ibadət olunanlar batildir, "Və ənnə Muhəmmədən əbduhu və rasuluhu" . Yəni, o, bir quldur, ona ibadət edilməz və bir elçidir, yalan danışmaz, "Radiytu billəhi Rabbən" . Yəni: Onun Rəbbliyindən, ilahlığından, ad və sifətlərindən razıyam. "Və bimuhəmmədin rasulən" (Və rəsul olaraq Muhəmməddən razı qaldım)". Yəni onunla bizə göndərilən və bizə çatdırdığı hər bir şeydən, "Və bil isləmi" (İslamdan). Yəni: Əmr və qadağaları ilə, İslamın bütün hökmlərindən, "Dinən" (Din olaraq). Yəni: etiqad edərək və boyun əyərək. "Günahları bağışlanar". Yəni: kiçik günahları.